Vətən bölünməzdir!

LƏNKƏRAN

İCTİMAİ-SİYASİ QƏZET

№ 15-16 (8467) ◉ Çərşənbə axşamı, 30 aprel 2019-cu il ◉ Qəzetin əsası 1931-ci ildə qoyulmuşdur ◉ Qiyməti 50 qəpik

1941-1945-Cİ İLLƏRDƏ İKİNCİ DÜNYA MÜHARİBƏSİNDƏ İŞTİRAK ETMİŞ, HƏLAK OLMUŞ VƏ YA SONRALAR VƏFAT ETMİŞ DÖYÜŞÇÜLƏRİN DUL ARVADLARINA, ARXA CƏBHƏDƏ FƏDAKAR ƏMƏYİNƏ GÖRƏ ORDEN VƏ MEDALLARLA TƏLTİF EDİLMİŞ ŞƏXSLƏRƏ BİRDƏFƏLİK MADDİ YARDIM VERİLMƏSİ HAQQINDA

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, İkinci Dünya müharibəsində Qələbənin 74-cü ildönümü ilə əlaqədar **qərara alıram:**

1. 1941-1945-ci illərdə İkinci Dünya müharibəsində iştirak etmiş şəxslərə 1000 (min) manat məbləğində, həlak olmuş və ya sonralar vəfat etmiş döyüşçülərin dul arvadlarına, həmin dövrdə arxa cəbhədə fədakar əməyinə görə orden və medallarla təltif edilmiş şəxslərə, döyüş cəbhələrinin arxa hüdudları, yaxud döyüşən donanmaların əməliyyat zonaları daxilində ordunun və donanmanın mənafeyi üçün tapşırıqları yerinə yetirmiş xüsusi birləşmələrin işçilərinə, Leninqrad şəhərinin müdafiəsinə görə müvafiq medal və döş nişanı ilə təltif edilmiş şəxslərə, habelə Leninqrad şəhərinin mühasirəsi iştirakçılarına 500 (beş yüz) manat məbləğində birdəfəlik maddi yardım verilsin.

2. Bu Sərəncamın 1-ci hissəsinin icrası məqsədi ilə:

2.1. Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan 5,0 (beş) milyon manat ayrılsın;

2.2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi həmin vəsaitin Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin xüsusi hesabına köçürülməsini təmin etsin;

2.3. Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi birdəfəlik maddi yardımın bu Sərəncamın 1-ci hissəsində nəzərdə tutulmuş şəxslərə çatdırılmasını təmin etsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

İlham ƏLİYEV,
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 23 aprel 2019-cu il.

"MÜHARİBƏ VETERANLARINA AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN TƏQAÜDÜ"NÜN TƏSİS EDİLMƏSİ HAQQINDA

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Əhalinin sosial müdafiəsinin gücləndirilməsi sahəsində əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 25 fevral tarixli 992 nömrəli Sərəncamının icrası ilə əlaqədar **qərara alıram:**

1. "Müharibə veteranlarına Azərbaycan Respublikası Prezidentinin təqaüdü" təsis edilsin və onun aylıq məbləği 80 manat müəyyən olunsun.

2. Müəyyən edilsin ki:

2.1. bu Fərmanın 1-ci hissəsinə əsasən təsis edilən Azərbaycan Respublikası Prezidentinin təqaüdü:

2.1.1. 2019-cu il aprelin 1-dək kommunal, nəqliyyat və digər xidmətlərə görə sosial müavinət alan şəxslərə həmin sosial müavinətin əvəzinə, əmək pensiyası alan və döyüşən ordunun tərkibində xidmət etmiş müharibə iştirakçılarına (Böyük Vətən müharibəsi iştirakçıları istisna olmaqla), habelə döyüş əməliyyatı aparılan ölkədə hərbi xidmət borcunu yerinə yetirmiş hərbi qulluqçulara əmək pensiyasının sığorta hissəsinə əlavə əvəzinə verilir;

2.1.2. dövlət büdcəsində Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə nəzərdə tutulmuş xərclər hesabına həmin nazirlik tərəfindən ödənilir;

2.2. bu Fərmanın 1-ci hissəsinə əsasən təsis edilən Azərbaycan Respublikası Prezidentinin təqaüdünü və müharibə və ya 1990-cı ilin 20 Yanvar hadisələri ilə əlaqədar əlilliyi olan şəxslərə, 1941-1945-ci illər Böyük Vətən müharibəsi iştirakçılarına, İkinci Dünya müharibəsi dövründə Leninqrad şəhərinin mühasirəsi zamanı şəhərin müəssisələrində, idarə və təşkilatlarında işləmiş və "Leninqradın müdafiəsinə görə" medalı, "Leninqrad mühasirəsində yaşayan" döş nişanı ilə təltif edilmiş şəxslərə, ümumi xəstəlik, hərbi xidmət dövründə xəstələnmə, əmək zədəsi və peşə xəstəliyi, hərbi əməliyyatlar keçirilən zonada olmaqla əlaqədar, Çernobıl AES-də qəzanın ləğvi ilə əlaqədar səbəblərdən I qrup əlilliyi olan şəxslərə Azərbaycan Respublikası Prezidentinin təqaüdünü almaq hüququ olan şəxslərə Azərbaycan Respublikası Prezidentinin qeyd olunan təqaüdlərindən yalnız biri – ən yüksəyi verilir.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

3.1. Azərbaycan Respublikası Prezidentinin aktlarının bu Fərmana uyğunlaşdırılması ilə bağlı təkliflərini bir ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

3.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının bu Fərmana uyğunlaşdırılmasını bir ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

3.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının bu Fərmana uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə iki ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

3.4. bu Fərmandan irəli gələn məsələləri həll etsin.

4. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların bu Fərmana uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

5. Bu Fərmanın 1-ci və 2-ci hissələri 2019-cu il aprelin 1-dən tətbiq edilir.

İlham ƏLİYEV,
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 15 aprel 2019-cu il.

"I DƏRƏCƏ ƏLİLLİYİ OLAN ŞƏXSLƏRƏ VƏ YA SAĞLAMLIQ İMKANLARI MƏHDUD 18 YAŞINADƏK UŞAQLARA QULLUQ EDƏN ŞƏXSLƏRƏ AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN TƏQAÜDÜ"NÜN TƏSİS EDİLMƏSİ HAQQINDA

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Əhalinin sosial müdafiəsinin gücləndirilməsi sahəsində əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 25 fevral tarixli 992 nömrəli Sərəncamının icrası ilə əlaqədar **qərara alıram:**

1. "I dərəcə əlilliyi olan şəxslərə və ya sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqlara qulluq edən şəxslərə Azərbaycan Respublikası Prezidentinin təqaüdü" təsis edilsin və onun aylıq məbləği 50 manat müəyyən olunsun.

2. Müəyyən edilsin ki, bu Fərmanın 1-ci hissəsi ilə təsis edilən Azərbaycan Respublikası Prezidentinin təqaüdü:

2.1. 2019-cu il aprelin 1-dək I dərəcə əlilliyi olan şəxslərə və ya sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqlara münasibətdə "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş qulluq üçün əmək pensiyasının sığorta hissəsinə əlavə əvəzinə verilir;

2.2. təqaüdü almaq hüququ olan şəxslərdən yalnız birinə ödənilir;

2.3. bu məqsədlər üçün dövlət büdcəsində Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə ayrılmış xərclər hesabına həmin nazirlik tərəfindən bu Fərmanın 3.1.2-ci yarımbəndində nəzərə tutulan qaydaya uyğun olaraq ödənilir.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

3.1. bir ay müddətində:

3.1.1. Azərbaycan Respublikası Prezidentinin aktlarının bu Fərmana uyğunlaşdırılması ilə bağlı təkliflərini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

3.1.2. bu Fərmanın 1-ci hissəsi ilə təsis edilən təqaüdün ödənilməsi qaydasını Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla təsdiq etsin;

3.1.3. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının bu Fərmana uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

3.1.4. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının bu Fərmana uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

3.1.5. bu Fərmandan irəli gələn məsələləri həll etsin.

4. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların bu Fərmana uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

5. Bu Fərmanın 1-ci və 2-ci hissələri 2019-cu il aprelin 1-dən tətbiq edilir.

İlham ƏLİYEV,
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 15 aprel 2019-cu il.

KÜVEYT SƏFİRİ LƏNKƏRANDA

Aprelin 16-da Küveytin Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Səid Əbdüləziz əl-Rumi Lənkərana tanışlıq səfərinə gəlib.

Lənkəran Şəhər İcra Hakimiyyətinin başçısı Taleh Qaraşov tərəfindən qəbul edilən qonağa Lənkəran rayonunun tarixi, coğrafi mövqeyi, sosial-iqtisadi və mədəni həyatı barədə ətraflı məlumat verilib. Azərbaycan-Küveyt dostluq və əməkdaşlıq əlaqələri çərçivəsində müxtəlif sahələrdə, xüsusilə turizm sahəsində birgə işin qurulması perspektivləri barədə fikir mübadiləsi aparılıb.

Səmimi qəbula görə minnətdarlığını bildirən səfir hər iki dost ölkə arasında qarşılıqlı əməkdaşlığın və anlaşmanın bundan sonra da dərinləşməsindən ötrü səylərini əsirgəməyəcəyini diqqətə çatdırıb.

Daha sonra Səid Əbdüləziz əl-Rumi Lənkəranda Heydər Əliyev Xatirə Parkında, Heydər Əliyev Mərkəzində, Tarix-Diyarşünaslıq Muzeyində, Xalça fabrikində, Hirkan Milli Parkı ərazisində yerləşən Xanbulançay dəryaçasında, Olimpiya İdman Kompleksində, İstisu və Sağlamlıq Mərkəzində, "Green East" çəltikçilik təsərrüfatında, "Yaşıl çay" fermer təsərrüfatının çay plantasiyalarında olub və şəhərin dənizsahili turizm əraziləri ilə maraqlanıb.

"Lənkəran"

İCRA BAŞÇISININ SƏYYAR QƏBUL-GÖRÜŞLƏRİ

Viravul kəndində

Aprelin 17-də Lənkəran Şəhər İcra Hakimiyyətinin başçısı Taleh Qaraşov növbəti səyyar qəbul-görüşünü rayonun Viravul kəndində keçirib. Rayonun hüquq-mühafizə orqanlarının, əlaqədar idarə və təşkilatların rəhbərlərinin iştirakı ilə keçən qəbulda sakinlərin müraciətləri dinlənilib və onları narahat edən məsələlər yerindəcə araşdırılaraq həllindən ötrü müvafiq tədbirlər müəyyənləşdirilib.

Qəbul zamanı sakinlər vətəndaş müraciətlərinə baxılması, narahatçılıq yaradan problemlərin həlli ilə bağlı görülən tədbirləri yüksək qiymətləndirdiklərini və ölkə Prezidentinin apardığı siyasəti, böyük uğurla həyata keçirdiyi sosial islahatları ürəkdən bəyəndiklərini diqqətə çatdırıblar.

Rayonda aparılan genişmiqyaslı abadlıq-quruculuq işlərini qeyd etməklə yanaşı, kənd sakinləri dövlətin qayğısı ilə aqrar sahədə də işlərin sürətləndiyini, kənd təsərrüfatı məhsulları istehsalçılarının gəlirlərinin artdığını, ərazidə 139 hektarda taxılın, 280 hektarda tərəvəzin, 32 hektarda kartofun, 52 hektarda bostan bitkilərinin, 112 hektarda yüksək keyfiyyətli çəltiyin əkildiyini, 3875 baş iribuynuzlu, 1100 baş xırdabuynuzlu mal-qaranın saxlanıldığını, 60 kq barama məhsulunun istehsalını bu qayğının bəhrəsi kimi dəyərləndiriblər.

Bütün çıxışlarda minimum əmək haqqının, pensiya və müavinətlərin artırılmasına, problemli kreditlərlə bağlı qəbul olunan ədalətli qərarlara görə cənab Prezidentə minnətdarlıq ifadə olunub.

Sakinlər tərəfindən razılıqla qarşılanan səyyar qəbulda səsləndirilən problem məsələlərə aydınlıq gətirilib, həlli vaxt tələb edən təkliflərlə bağlı izahat işi aparılıb və aidiyyəti üzrə müvafiq tapşırıqlar verilib.

Sütəmurdov kəndində

Aprelin 24-də Lənkəran rayonunun Sütəmurdov kəndində şəhər İcra hakimiyyətinin başçısı Taleh Qaraşovun növbəti səyyar qəbul-görüşü keçirilib. Xidmət idarələrinin, əlaqədar təşkilatların və hüquq-mühafizə orqanlarının rəhbərlərinin iştirakı ilə keçən qəbulda vətəndaşlar ümumilikdə ölkədə, rayonda və konkret olaraq Sütəmurdov kənd inzibati ərazi dairəsində sosial-iqtisadi inkişafla bağlı görülən işləri, əhalinin fasiləsiz elektrik enerjisi, təbii qaz və içməli su ilə təchizatını, müasir yolların salınmasını, turizm infrastrukturunun yaradılmasını, yeni istehsal müəssisələrinin tikilib istifadəyə verilməsini, iş yerlərinin açılmasını ölkə Prezidentinin xalqın rifah halının durmadan yaxşılaşdırılması istiqamətində həyata keçirdiyi uğurlu siyasət kimi minnətdarlıq ifadələri ilə dəyərləndiriblər. Onlar ölkənin ən böyük idman qurğularından biri olan Olimpiya İdman Kompleksinin Sütəmurdov kəndində tikilməsindən və dənizsahili tərəfdə yeni layihələrin icrasına başlanılmasından sevinc hissi keçirdiklərini və ərazidə turizmin inkişafı hesabına yeni iş yerlərinin açılmasının onların da maddi-məişət imkanlarının daha da yaxşılaşacağına əminliklərini xüsusi vurğulayıblar.

Sakinlər vətəndaş müraciətlərinə baxılması, narahatçılıq yaradan problemlərin həlli ilə bağlı görülən tədbirləri yüksək qiymətləndirdiklərini və ölkə Prezidentinin apardığı siyasəti, böyük uğurla həyata keçirdiyi sosial islahatları ürəkdən bəyəndiklərini də diqqətə çatdırıblar.

İcra başçısı çıxışlarda səsləndirilmiş təkliflərlə bağlı aidiyyəti məsul şəxslərə müvafiq tapşırıqlar verib.

"Lənkəran"

MAARİFLƏNDİRİCİ TƏDBİR

Aprelin 19-da Lənkəranda Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) bölgə üzrə şöbəsi və Lənkəran Şəhər Gənclər və İdman İdarəsinin birgə təşkilatçılığı ilə "Qeyri-ənənəvi dini cərəyanlara qarşı mübarizədə idman ictimaiyyətinin rolunun artırılması" mövzusunda tədbir keçirilib.

Tədbiri giriş sözü ilə açan idarənin rəis müavini Elbəy Fətəliyev çıxışında "Azərbaycan gəncliyi 2017-2021-ci illərdə" Dövlət Proqramı haqqında məlumat verib. Qeyd edib ki, proqramda dini ekstremizm və ayrı-seçkilik çağırışlarına qarşı gənclərin səfərbər edilməsi, onlar arasında milli-dini dözümlülük, sülhsevərlik, humanizm dəyərlərinin təbliğ edilməsi əsas yer tutur.

DQİDK-nın Lənkəran bölgəsi üzrə şöbəsinin əməkdaşı Emin Həmidli çıxışında qeyri-ənənəvi dini cərəyanlar, onların təbliğat metodları və həmin cərəyanlara qarşı aparılan mübarizə tədbirləri haqqında iştirakçıları məlumatlandırıb. E.Həmidli dini radikalizmə qarşı mübarizə və gənc nəslin radikal dini qruplara qoşulmasının qarşısını almaq üçün onların düzgün dini bilgilərə yiyələnməsinin vacibliyinə diqqət çəkib. Natiq ölkəmizdə tarixən mövcud olan müxtəlif dinlər və məzhəblər arasında hökm sürən həmrəylik və vəhdətdən danışıb.

Sonda Dövlət Komitəsinin sifarişi ilə çəkilmiş "Vəhdət qanımızdadır" adlı sənədli film nümayiş etdirilib və iştirakçıları maraqlandıran suallar cavablandırılıb.

Barat KƏRİMOV

ŞƏHİDİN ANIM MƏRASİMİNDƏ

Azərbaycanın bütövlüyü, torpaqlarımızın müdafiəsi uğrunda canlarından keçmiş şəhidlərimizin ömür yolu gənclərimizə örnəkdir. Bu fikirlər Lənkəran rayonunun Sütəmurdov kənd tam orta məktəbində şəhid Rəşid Dadaşovun anım gününə həsr olunan tədbirdə deyilib.

Çıxış edənlər şəhidin şərəfli ömür yolundan danışaraq, qəhrəmanların ölmədiklərini, daim qəlblərdə yaşadıqlarını bildiriblər. Çıxışlarda şəhidin məktəb illərindəki xatirələrindən danışılıb, onun yüksək əxlaqi keyfiyyətlərə malik olduğu vurğulanıb.

Şəhidin müəllimləri də şagirdləri ilə bağlı xoş xatirələrini dilə gətiriblər. Bildirilib ki, şəhid oğullarımızın xatirəsini əziz tutmaq hər bir kəsin mənəvi borcu olmalıdır.

Daha sonra şagirdlərin ifasında vətənə, şəhidlərimizə həsr olunmuş şeirlər səsləndirilib.

Anım mərasimi Sütəmurdov kənd qəbirstanlığında şəhid Rəşid Dadaşovun məzarının ziyarət edilməsi ilə başa çatıb.

Qeyd edək ki, 1975-ci il aprelin 12-də Lənkəranın Sütəmurdov kəndində anadan olan Rəşid Dadaşov 1994-cü ilin yanvarında hərbi xidmətə yola düşüb. Həmin ilin aprelin 26-da Ağdam rayonunun Güllücə kəndi istiqamətində gedən döyüşlərdə qəhrəmancasına şəhid olub.

A.ŞAĞLASERLİ

UŞAQLAR İCBARİ DİSPANSERİZASİYA TƏDBİRLƏRİNƏ CƏLB OLUNUR

Ölkəmizdə uşaqlara göstərilən tibbi xidmətin keyfiyyətinin yaxşılaşdırılması dövlətin sosialyönümlü siyasətinin prioritet istiqamətlərindən biridir. Son illər bu sahədə mühüm addımlar atılıb. Tədbirlər BMT-nin Uşaq Hüquqları Konvensiyasına və "Minilliyin İnkişaf Məqsədləri"nə, eləcə də "Azərbaycan-2020: Gələcəyə baxış" İnkişaf Konsepsiyasına uyğun olaraq aparılır. Bu məqsədlə ölkədə uşaqların sağlamlığı ilə əlaqədar çox önəmli qanunlar qəbul olunub. "Uşaqların icbari dispanserizasiyası haqqında" qanun layihəsinin qəbul edilməsi də məhz bu illər ərzində aparılan islahatların məntiqi davamıdır. Xatırladaq ki, Azərbaycanda "Uşaqların icbari dispanserizasiya haqqında" qanun 5 mart 2013-cü ildə Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən qəbul edilmiş, Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin 11 aprel 2013-cü il tarixli müvafiq Sərəncamı ilə qüvvəyə minmişdir.

Uşaqların dispanserizasiyası – uşaqların sağlamlığının qorunması normal fiziki inkişafının təmin edilməsi və xəstəliyin ilkin mərhələdə aşkar edilməsi məqsədilə kompleks profilaktika, diaqnostika və müalicə-sağlamlaşdırıcı tədbirlərdən ibarət olan aktiv dinamik müşahidə sistemidir. Xəstəliklərin və əlillik hallarının əksəriyyətinin təməlinin uşaq yaşında qoyulduğunu nəzərə alaraq, uşaqlar arasında xəstəliklərə səbəb olan risk faktorlarının aşkar edilməsi və qarşısının alınması, kəskin və xroniki xəstəlikləri olan uşaqların erkən aşkar edilməsi onların müalicəsi və nəzarətə götürülməsi məqsədi ilə icbari tibbi müayinələrin aparılmasının, aşkar edilmiş xəstə uşaqların dispanserizasiyaya cəlb edilməsinin və müalicə-sağlamlaşdırıcı tədbirlərin həyata keçirilməsinin müstəsna əhəmiyyəti vardır.

Məlum olduğu kimi, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev "Uşaqların icbari dispanserizasiyadan keçirilməsinə dair 2018-2020-ci illər üçün Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında Sərəncam imzalayıb. Bu Dövlət Proqramı çərçivəsində uşaqlara tibbi yardım göstərən tibb müəssisələrinin maddi-texniki bazasının yaxşılaşdırılması, onların müasir tibbi texnika və avadanlıqlarla təchiz edilməsi və bu istiqamətdə həyata keçirilən tədbirlər uşaqlar arasında xəstələnmənin, sağlamlıq imkanları məhdudluğunun və ölümün səviyyəsinin azaldılmasına imkan verib.

Qeyd edək ki, "Uşaqların icbari dispanserizasiyası haqqında" qanuna əsasən, Azərbaycanda uşaqlar ildə bir dəfə icbari tibbi müayinədən keçməlidirlər. Bu son dərəcə əhəmiyyətli və vacib tədbir respublikamızın hər yerində olduğu kimi, rayonumuzda da diqqət mərkəzindədir. Bu mühüm işdə bölgəmizdə uşaq səhiyyə müəssisələri arasında xüsusi yeri olan Lənkəran Şəhər Uşaq Poliklinikasının kollektivi də fəal iştirak edir. Rayonumuzda uşaqların icbari dispanserizasiyasından keçirilməsi işi ilə bağlı Lənkəran Şəhər Uşaq Poliklinikasının baş həkimi Nahid Kərimov əməkdaşımızla söhbətində bunları bildirib:

– Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin müvafiq Sərəncamına əsasən, hər il Azərbaycanda uşaqlar icbari tibbi müayinədən keçir. Lənkəranda da bu mühüm aksiya, demək olar ki, mütəşəkkil qaydada həyata keçirilir. Bu il də ilk aylardan başlayaraq uşaqlar müvafiq tibb müəssisələrində icbari dispanserizasiya tədbirlərinə cəlb olunub.

Əvvəla, onu qeyd edim ki, fevral ayının 4-dən aprel ayının 17-nə qədər müəssisəmizdə 0-8 yaşa qədər uşaqlar icbari dispanserizasiyadan keçiblər. Belə ki, şəhər məktəblərindən 9604 uşaqdan 9000 nəfər, məktəbəqədər tərbiyə müəssisələrindəki 1628 uşaqdan 1508 uşağın tibbi müayinəsi başa çatıb. Bunlardan 2791 nəfərdə müxtəlif xəstəliklər aşkar olunub.

Onlardan da 2132 nəfər dispanser qeydiyyatına götürülüb. Müayinələrin nəticələrinə əsasən 79 nəfər hospitalizasiya olunub. 11 nəfər isə uşaq bərpa mərkəzlərinə göndərilib. Qeyri-mütəşəkkil qrupdan olan uşaqlar dispanserizasiya cədvəli üzrə il boyu poliklinikada dispanserizasiyadan keçirlər. Mütəşəkkil qrupdan olan uşaqlar isə ixtisaslı həkimlər tərəfindən öz tədris müəssisələrində tibbi müayinəyə cəlb olunurlar.

Uşaqların icbari dispanserizasiyası üzrə keçirilən müayinələr hərtərəfli aparılır. Bu məqsədlə təyin olunmuş həkim briqadaları tərəfindən əhali arasında dispanserizasiya işinin yaxşılaşdırılması və yerlərdə tibbi xidmət göstərilməsinə xüsusi diqqət yetirilir. Bu briqadalar müvafiq qrafik əsasında yerlərdə olur, əhaliyə lazımi xidmət göstərirlər. Bu da xəstəliklərin aşkar edilməsi və vaxtında tam müalicə edilməsi baxımından son dərəcə əhəmiyyətlidir. Uşaqların sağlamlığının qorunması istiqamətinə hesablanan bu tədbirlər uşaqlara göstərilən tibbi xidmətin səviyyəsinin yüksəldilməsi, onlarda sağlamlıq vəziyyətinin yaxşılaşdırılması, dispanserizasiyanın nəticələrinin təhlili əsasında vaxtında müalicə, sağlamlaşdırıcı tədbirlərin həyata keçirilməsi və s. məqsədi daşıyır.

Bir sözlə, dispanserizasiyadan keçməkdə məqsəd uşaqlarda xəstəlikləri vaxtında aşkar etmək, onların müalicəsini həyata keçirmək və müşahidə altında saxlamaqdır.

Natiqə AĞAYEVA

Böyük Vətən müharibəsində Qələbənin 74 illiyi

ƏFSANƏVİ SƏRKƏRDƏNİN EV-MUZEYİNDƏ

Lənkəran şəhərində hamıya tanış bir ünvan var: İsmət Qayıbov küçəsi, 19. Dünyaca məşhur sərkərdə, iki dəfə Sovet İttifaqı Qəhrəmanı, tank qoşunları qvardiya general-mayoru Həzi Əhəd oğlu Aslanovun ev-muzeyi burada yerləşir.

Generalın həyatı və döyüş yolu haqqında müfəssəl məlumat almaq və ən əsası onun hələ 8 yaşında ikən 1918-ci ildə öz əli ilə əkdiyi 101 yaşlı innab ağacını görmək üçün qəhrəmanın evinə yollandıq.

Yeri düşmüşkən bildirək ki, Həzi Aslanovun ev-muzeyi 9 may 1969-cu ildə istifadəyə verilərkən cəmi 2 otaqdan ibarət olub. 8 may 1983-cü ildə evin yeni ekspozisiya otaqlarının açılışı edilib. Otaqların sayı 5-dək artırılıb və muzeyin ümumi sahəsi 114,2 kvm-ə çatdırılıb.

Həmin gün muzeyin açılışında respublikanın dövlət orqanlarının məsul işçiləri, qəhrəmanın oğulları -Tofiq Aslanov, Arif Aslanov, qardaşı Abbasqulu Aslanov yaxın qohumları, veteranlar və rayon ictimaiyyətinin nümayəndələri də iştirak ediblər.

1985-ci ildə Həzi Aslanovun ev-muzeyi qələbənin 40-illiyi münasibətilə hərbi-vətənpərvərlik sahəsində səmərəli fəaliyyətinə görə SSRİ Mədəniyyət Nazirliyinin diplomuna layiq görülüb.

Həzi Aslanovun ev-muzeyinin ilk direktoru qəhrəmanın ömür-gün yoldaşı Xavər xanım Aslanova olub. Bir il sonra isə bu vəzifəyə Həlimə Axundova təyinat alıb. Daha bir müddət sonra muzeyə rəhbərlik işi Tamara Fətullayevaya tapşırılıb. Tamara xanım, demək olar ki, muzey yarandığı gündən burada çalışıb. Elmi işçi vəzifəsindən direktorluğa kimi yüksəlib. Cəmi bir ay öncə sevimli işindən ayrılıb.

Qeyd edək ki, generalın ev-muzeyinin ziyarətinə müxtəlif vaxtlarda tanınmış simalar – qəhrəmanın döyüş yoldaşları, korpus komandiri və digərləri gəliblər. Məşhur müğənnilər, Xalq artistləri Şövkət Ələkbərova, Sara Qədimova, Zeynəb Xanlarova, Sovet İttifaqı Qəhrəmanları Ziya Bünyadov və Məlik Məhərrəmov da generalın ev-muzeyini ziyarət edənlərdəndir.

Muzeyin elmi işçisi Cəmilə Şərifovanın sözlərinə görə, generalın evində qəhrəmanın anasının və özünün şəxsi əşyaları saxlanılır: "Ev yerli memarlıq üslubunda çiy kərpicdən tikilib. Evin 5 otağı və 1 geniş eyvanı var. Birinci otaqda generalın anası Nuşafərin xanımın şəxsi əşyaları qorunur. İkinci otaqda qəhrəmanın 1924-40-cı illər ərzində hərbi xidməti əks etdirən ekspozisiyalar, üçünü otaqda onun Moskvadan Stalinqrada qədər keçən döyüş yolunudan xəbər verən ekspozisiyalar, 4-cü otaqda Belarusiyada Baltikyanı ölkələrə qədər döyüş yoluna dair ekspozisiyalar, 5-ci otaqda isə muzeyə verilən hədiyyələr, generalın bir neçə şəxsi əşyası, o cümlədən general forması və sırıqlısı saxlanılır".

Təqdirəlayiq haldır ki, muzeydə saxlanılan eksponatların sayı 2351 ədədə çatıb. Onlardan 421 ədədi eksponatların əslidir, 1930 ədədi isə elmi-köməkçi eksponatlardır. Burada generalın xatirə əşyalarından şəxsi hərbi geyimi, sırıqlı şalvarı, əl dəsmalı, yorğança, süfrə və s. saxlanılır.

C.Şərifovanın bildirdiyinə görə, bu günə qədər qəhrəmanın ev-muzeyinə bir milyondan çox ziyarətçi gəlib. Onların əksəriyyəti öz ürək sözlərini muzeyin xatirə kitablarına yazıblar. Artıq xatirə kitablarının sayı 50-ə çatıb. Maraqlıdır ki, ilk xatirə kitabına ilk ürək sözünü muzeyin açılışı günü Azərbaycanın görkəmli yazıçıları Hüseyn Abbaszadə və Əli Vəliyev yazıblar.

Qeyd edək ki, Hüseyn Abbaszadə Həzi Aslanovun döyüş yolundan bəhs edən "General" romanının müəllifidir.

Zəruri xatırlama: Həzi Əhəd oğlu Aslanov 1910-cu il yanvarın 22-də Lənkəranda anadan olub. İbtidai təhsilini şəhər 1 saylı orta məktəbində alıb. 13 yaşında atasını itirən Həzi kərpic zavodunda fəhlə kimi işləməyə başlayıb. Sonra komsomol göndərişi ilə Zaqafqaziya hərbi hazırlıq məktəbinə göndərilib. 1924-1930-cu illərdə Bakı və Leninqrad hərbi məktəblərində oxuyub. 1929-cu ildə Leninqrad süvari məktəbinə daxil olub. İkiillik təhsildən sonra Kotovsk adına III Bessarabiya süvari diviziyasında vzvod komandiri kimi fəaliyyətə başlayıb.

Həzi Aslanov Böyük Vətən müharibəsi cəbhələrində göstərdiyi şəxsi igidlik və qoçaqlığına görə 3 Qırmızı Bayraq ordeni, 2-ci dərəcəli Suvorov ordeni, Aleksandr Nevski ordeni, 1-ci dərəcəli Vətən müharibəsi ordeni, 2 Qırmızı Ulduz ordeni və müxtəlif medallarla təltif olunub.

1944-cü ildə general-mayor H.Aslanov Belorusiya cəbhəsindəki şücaətinə görə ikinci dəfə yüksək ada təqdim edilsə də, SSRİ hərbi rəhbərliyində təmsil olunan erməni generalı İ.Baqramyan buna maneəçilik törədib. Ölümündən 47 il sonra, 1991-ci ildə H.Aslanova ikinci dəfə Sovet İttifaqı Qəhrəmanı adı verilib.

Stalinqraddan Baltik sahillərinədək döyüş yolu keçən Həzi Aslanov 24 yanvar 1945-ci ildə Latviyanın Liepay rayonunda alman faşistləri ilə döyüşdə qəhrəmancasına həlak olub.

Qəbri Bakıda Şəhidlər Xiyabanındadır.

Azad ZÜLALOĞLU,
Ağaddin BABAYEV

LƏNKƏRAN BARƏDƏ 5 FAKT - RUSİYALI BLOGERLƏRİN AZƏRBAYCANDAN YENİ FİLMİ

Rusiyalı blogerlər Lənkərandan geniş reportaj hazırlayıblar. "Conde Media" prodüser şirkətinin hazırladığı videoda Lənkəranın təbiəti, mətbəxi, adət-ənənələri barədə məlumat verilir.

Reportajda subtropik iqlimi olan Lənkəranda limon, portağal və digər ekzotik meyvələrin yetişdiyi bildirilir. Qeyd olunur ki, dəniz sahilində yerləşən bu diyarın çimərlikləri müalicəvi əhəmiyyətə malik nadir qara qumla zəngindir. Belə quma Havay adaları və Yeni Zelandiyada da rast gəlinir.

Aparıcı Nataşa Savitskaya qeyd edir ki, Lənkəranın əhalisi qonaqpərvərliyi ilə seçilir. Burada istənilən evin qapısı qonaq üçün açıqdır. Talış dilindən və mədəniyyətindən danışan bloger Lənkəran mətbəxinin dadlı təamlarından olan ləvənginin bişirilməsi qaydalarını da izləyicilərə təqdim edir.

Videoda, həmçinin çay plantasiyaları da göstərilir, Lənkəran çayının dadı və ətri ilə seçildiyi bildirilir.

Bundan əvvəl blogerlər Masallıda da çəkilişlər edərək "YouTube" kanalı vasitəsilə yayıblar.

Rejissoru Fransua Konde olan filmin media tərəfdaşı AZƏRTAC informasiya agentliyidir.

AZƏRTAC

Vətənimiz Azərbaycandır!

BÍR BUDAĞIN PÖHRƏLƏRÍ

"Var idi ürəyində bu torpağa məhəbbət"

Sənan Axundov. Bu ad və soyad Lənkəranın pedaqoji ictimaiyyətinə çox yaxşı tanışdır. O, 75 illik şərəfli ömrünün 55 ilini gənc nəslin təlim-tərbiyəsi işinə həsr etmiş, səmimi və təvazökar insan, bacarıqlı təhsil işçisi idi.

Sənan Ağamməd oğlu Axundov 1924-cü il avqust ayının 15-də rayonumuzun Boladi kəndində anadan olub. 1942-ci ildə kənd orta məktəbini əla qiymətlərlə bitirdikdən sonra ehtiyac olduğu üçün həmin ildə Masallı rayonunun Şatroba kəndinə müəllim təyin edilib. 1945-1949-cu illərdə Azərbaycan Pedaqoji İnstitutunun tarix fakültəsində təhsil alıb. Ali məktəbi Stalin təqaüdü ilə başa vurub, institutda müəllim işləmək təklifi alsa da, təyinatını ucqar dağ rayonu olan Lerikə alıb. 1949-cu ildən 1962-ci ilədək Lerikin Çayrud, Siyov kəndlərində və rayon mərkəzində olan orta məktəblərində direktor vəzifəsində çalışıb. 1962-ci ildə doğma Lənkərana qayıdıb, Boladi kəndində müəllim, Zövlə kənd orta məktəbində iki il direktor işləyib. Yüksək pedaqoji savadı və təcrübəsi nəzərə alınaraq 1964-cü ildə Lənkəran Rayon Xalq Maarif Şöbəsinə baş inspektor təyin edilib və həmin vəzifədə 1982-ci ilədək müvəffəqiyyətlə fəaliyyət göstərib. Həmin illərdə bütün istedad və bacarığını, qüvvəsini rayonda təhsilin inkişafına sərf edib, Lənkəran maarifinin uğurlar qazanmasında misilsiz əməyi olub.

S.Axundov 1982-ci ildən Boladi kənd orta məktəbində pedaqoji fəaliyyətini müəllim kimi davam etdirib. Lənkəranda iş təcrübəsi yayılıb, "Qabaqcıl maarif xadimi", "SSRİ maarif əlaçısı" (1972) fəxri adlarına layiq görülüb. "Qırmızı Əmək Bayrağı" (1976) və "Oktyabr İnqilabı" (1986) ordenləri ilə təltif edilib. 1999-cu ildə haqq dünyasına qovuşub.

Təcrübəli pedaqoq və bacarıqlı təşkilatçı, nümunəvi ağsaqqal, həyat və fəaliyyəti hər bir təhsil işçisi üçün örnək olan Sənan müəllimin əziz xatirəsi bu gün də onu tanıyanların qəlbində yaşayır.

Şair İltifat Saleh Sənan Axundova həsr etdiyi şeirdə yazır:

...Bulaq idin həyatda,
nəğmə dedin, çağladın.
Zəif şagirdə hətta,
ümidini bağladın.
...Dilindən eşitmədik
nə bir giley, nə qiybət.
Var idi ürəyində
bu torpağa məhəbbət...

Müəllim ziyadır, müəllim nurdur

Deyirlər, müəllim ömrünün bağban ömrünə bənzəri var. Bağban min bir əziyyətlə yetişdirdiyi ağacların barını dərəndə zəhmətinin hədər getmədiyini görüb sevinir. Müəllim də belədir. O, dərs dediyi şagirdlərinin xoş sorağını ali məktəb auditoriyalarından, elm ocaqlarından, iqtisadiyyatın müxtəlif sahələrindən eşidəndə fərəhindən ürəyi köksünə sığmır. Sənan Axundov məhz belə bir ömür yaşayan pedaqoqlardan idi. Zəngin bilik xəzinəsindən bəhrələnən yetirmələri arasında hazırda çoxsaylı alimlər, professorlar, akademiklər, admirallar, görkəmli hərbçilər, tarixçilər, həkimlər, tanınmış istehsalat qabaqcılları, əmək qəhrəmanları... var.

Ən önəmlisi isə odur ki, Boladi kəndində Axundovları müəllimlər sülaləsi kimi tanıyırlar. Sənan müəllimin 5 övladından 4-ü ali təhsilli müəllimdir. Böyük qızı Tehran uzun illər biologiya müəllimi işləyib, hazırda pensiyadadır. Kiçik qızı Valiyə Haftoni qəsəbə tam orta məktəbində ingilis dili müəllimi işləyir. Ortancıl oğlu Nadir atasının davamçısıdır, Lənkəran Dövlət Humanitar Kollecində tarix fənnini tədris edir. Kiçik oğlu İlham Kanadanın Vaterloo Universitetinin professoru, elmlər doktorudur. Ailənin gəlin xanımları Nailə,

Kamilə və Şölə Axundovalar da ali təhsilli müəllimlərdir. Yalnız böyük oğlu Zahir həkimlik ixtisasına yiyələnib, Lənkəranda müxtəlif tibb ocaqlarında çalışıb. Hazırda Mərkəzi Rayon Xəstəxanası Poliklinika şöbəsinin baş həkimidir, səhiyyənin inkişafında xüsusi xidmətləri var, yüksək nüfuz və hörmət sahibidir.

Tarixçi Nadir Axundovun verdiyi məlumata görə, şəcərənin nümayəndələri arasında müəllimlər çoxluq təşkil edir. Boladi kəndində Axundovlar nəslinin pedaqoji fəaliyyətinin üst-üstə 300 ildən çox yaşı var.

Estafet etibarlı əllərdədir

XXI əsrdə yüksək texnologiyaların gündən-günə inkişafı insanların həyat tərzinin yaxşılaşmasında mühüm rol oynayır. Bu məqsədlə amerikalı Elon Musk tərəfindən yaradılan, ABŞ-ın populyar olan TESLA avtomobil şirkəti günümüzün ən məşhur markaları arasında xüsusi yer alır. Çox qürurvericidir ki, bu şirkətin savadlı mütəxəssislər və yaradıcı insanlarla zəngin kadrları arasında azərbaycanlı gənclər də var. Onlardan biri Kanadanın dünya şöhrətli Vaterloo Universitetinin Mexanika Mühəndisliyi fakültəsinin sonuncu kurs tələbəsi Sənan Axundzadədir. Bəli, babasının adını daşıyan bu eloğlumuzun təhsil aldığı müddətdə qazandığı yüksək nailiyyətlər onun TESLA şirkətində çalışmasına yol açıb. Sənan oxuduğu fakültənin özəl proqramına əsasən, bir semestr oxumaq və bir semestr işləmək imkanı sayəsində hələ tələbə ikən Kanadanın müxtəlif şirkətlərində iş təcrübəsi qazanmağa nail olub. O, artıq bir ildir ki, ABŞ-ın Kaliforniya ştatında, Silicon Valey şəhərində yerləşən TESLA şirkətinin baş ofisində mexanika mühəndisi vəzifəsində işləyir. Sənan universitetdə qazandığı biliklər və bacarığı sayəsində iş yoldaşlarının dərin rəğbətini qazanıb. Hazırda yer aldığı komandası ilə birlikdə TESLA-nın yeni – Y. Modelinin inteqrasiya dizaynı üzərində həvəslə çalışır. Tələbə-mühəndis Sənan Axundzadə 2020-ci ilin yaz aylarında məzun olduqdan sonra TESLA şirkətində işinə davam etmək və yeni-yeni layihələr üzərində çalışmağı planlaşdırır.

O, 1996-cı ildə ziyalı ailəsində doğulub. Uşaqlıq illəri Bakıda keçib. Üç yaşında ikən atasının işi ilə əlaqədar ailəsi xarici ölkəyə köçüb. ABŞ, Türkiyə, Birləşmiş Ərəb Əmirlikləri və Kanadada oxuyub, təhsilini davam etdirib. Yüksək səviyyəli elm ocaqlarında qazandığı savad və biliklə zənginləşib, əldə etdiyi təcrübə ilə indiki mərhələyə pillə-pillə ucalıb. Sənan təkcə elm sahəsində deyil, eyni zamanda, musiqi və idman sahəsində də bacarığını nümayiş etdirir. Gitarada məharətli ifaları mütəxəssislər tərəfindən bəyənilir. Arzu edənlər onu Youtube kanalından izləyə bilərlər. Sənanın uzun illərdir üzvü olduğu reqbi komandası vilayət birincisi olub və daha yüksək yarışlara vəsiqə qazanıb.

S.Axundzadənin gənc yaşlarında belə uğur qazanmasına gedən yol onun ailəsindən keçir. Atası İlham Axundov Azərbaycanımızın sayılıb-seçilən, bacarıqlı alimlərindən və çox hörmətli ziyalılarındandır. 2009-cu ildən Kanadanın Vaterloo Universitetinin Riyaziyyat fakültəsinin riyaziyyat və biznes üzrə proqramlar direktoru, fizika-riyaziyyat

elmləri doktorudur. Kanada-Azərbaycan Əməkdaşlıq Assosiasiyasının prezidenti kimi Azərbaycan həqiqətlərinin Kanadada yayılmasında mühüm xidmətləri vardır. İlham Axundov, eyni zamanda, Türkiyə-Azərbaycan diasporunun üzvüdür, Dünya Azərbaycanlılarının Bakıda keçirilmiş qurultaylarının üzvüdür. 2016-cı ildə elmi, pedaqoji və diaspor sahəsində səmərəli fəaliyyətinə görə Azərbaycan Prezidenti İlham Əliyevin Sərəncamı ilə "Tərəqqi" medalına layiq görülüb.

Qeyd etmək lazımdır ki, Sənanın ana babası Salman Əmirov da Lənkəran şəhərində sevilən və tanınan riyaziyyat müəllimlərindən olub. Onun savad verdiyi yüzlərlə şagirdi hazırda müxtəlif sahələrdə yüksək bilikli kadrlar kimi fəaliyyət göstərir.

Göründüyü kimi, 23 yaşlı S.Axundzadə ziyalı nəslinin layiqli davamçısı və hamımızın fəxr edəcəyi gənclərimizdəndir. Okeanın o tayında doğma Azərbaycanımızı təhsildə və çalışdığı şirkətdə əldə etdiyi nailiyyətlərlə təmsil edən həmvətənimizə bu çətin və şərəfli yolda uğurlar arzulayırıq.

P.S. Nəslin adına qürur və şərəf gətirən nəvələrdən biri də Elvir Nadir oğlu Axundovdur. O, 1987-ci ildə Boladi kəndində anadan olub, ali təhsillidir. Hazırda SOCAR-da şöbə müdiri vəzifəsində işləyir. Elvir, eyni zamanda, kiçik yaşlarından bədii yaradıcılıqla məşğul olur, şeirləri respublika və rayon mətbuatında dəfələrlə dərc edilib. 5 cildlik Türk Dünyası Antologiyası məcmuəsində (2018) onun da şeirləri yer alıb.

P.S.S. Bəli, maarif fədaisi Sənan Axundovun ruhu bu gün çox rahat və şaddır. Çünki, bir budağın pöhrələri – onun övladları, nəvələri, ailə üzvləri bilik və səmərəli fəaliyyətlərilə cəmiyyətə fayda verir, qurub-yaradırlar. Onların ardıcılları da, şübhəsiz, estafeti ləyaqətlə davam etdirəcək, elə, obaya, Axundovlar nəslinə başucalığı gətirəcək, Vətənə yeni-yeni töhfələr verəcəklər...

İltifat MƏHƏRRƏMOĞLU

Şəkillərdə: *1. Sənan Axundov. 2. Sənan Axundzadə. 3. (sağdan): Vaterloo Universiteti Riyaziyyat fakültəsinin riyaziyyat və biznes üzrə proqramlar direktoru, professor İlham Axundov, AMEA-nın prezidenti, akademik Akif Əlizadə, Vaterloo Universiteti Riyaziyyat fakültəsinin dekanı, professor Stefan Vatt (Bakı, 20 aprel 2018-ci il).*

Nəsillərə nümunə

ŞƏRƏFLİ ÖMÜR YOLU

Latviyanın Vilyana şəhərinin fəxri vətəndaşı, 9 orden və medalın, o cümlədən 3-cü dərəcəli Şöhrət, 1-ci dərəcəli Vətən Müharibəsi ordenlərinin, "1941-1945-ci illər Almaniya üzərində Qələbəyə görə" medalının sahibi, 2-ci Dünya müharibəsinin od-alovundan çıxmış Hüseyn Rüstəm oğlu Heydərov həmkəndliləri və qohumları üçün "Hüseyn müəllim", övlad, nəvə və nəticələri üçün isə "Mirzə" (uşaqları onu belə çağırardılar) kimi yaddaşlarda qalıb.

Hüseyn Heydərov ciddi və olduqca təvazökar idi, heç vaxt özünün xidmətləri ilə öyünməz və bu barədə danışmazdı.

Hüseyn müəllim bibim Fəxrinin həyat yoldaşı idi. Mən onlara tez-tez gedərdim. Hər görüşdə ondan müharibə xatirələrini danışmağı xahiş edərdim. O, mənim tarix sahəsinə olan meylimi görüb, nəhayət, günlərin birində xatirələrini həvəslə danışmağa başladı...

...Hüseyn müəllimgil ailədə altı uşaq - beş qardaş və bir bacı olublar. Atası Rüstəm kişi və anası Nisə arvad kolxozda fəhlə işləyirdi. Müharibə başlananda Hüseyn müəllimin 19 yaşı yenicə tamam olmuşdu. O, Lənkəran Pedaqoji Texnikumunu bitirib, Masallı rayonundakı Şatroba kənd yeddillik məktəbində dərs deyirdi. Yay məzuniyyəti vaxtı olduğu üçün kəndə qayıdıb, ata-anasına taxıl biçinində kömək edirdi. Böyük qardaşları Əliheydər, Fayaz və Əbdülrza müharibənin ilk günlərində cəbhəyə getdilər.

Hüseyn müəllim isə 1941-ci ilin noyabr ayında cəbhəyə çağrıldı. O, 235-ci piyada diviziyasının 732-ci atıcı alayında xidmət etməyə başladı. Bu ərəfədə (27 dekabr 1941-ci ildə) Novosibirsk şəhərində diviziyanın ikinci dəfə formalaşması prosesinə başlanılmışdı. 1942-ci ilin fevralın 19-da diviziya tam heyəti ilə Novosibirsk şəhərindən çıxaraq, yeni dislokasiya yerinə gəldi və 1942-ci ilin martın 10-da Voloqda vilayətinin Qryazovetsk rayonunda 58-ci ehtiyat ordusunun tərkibində döyüş hazırlıqlarına başladı.

Aprel ayının əvvəllərində 235-ci piyada diviziyası Suxiniçi yük boşaltma məntəqəsindən Şimal-Qərb cəbhəsi istiqamətinə, Çernı Dvor, Ostaşkov yük boşaltma stansiyasına göndərildi və buradan da 1942-ci il mayın 6-na qədər olan müddətdə 120 kilometr yürüş edərək, Demyansk rayonunun 30 kilometr cənubunda – Kojino, Melixovo, Kadnikovo və Laptevo kəndləri istiqamətində yerləşdirilməklə 53-cü Ordunun ixtiyarına verildi.

Diviziya ilk döyüşə 1942-ci il mayın 19-24-ü tarixində başladı. Bu döyüşdə məqsəd Kulotino kəndinə hücum etmək və onu ələ keçirmək, sonradan isə döyüşə davam edərək cənubdan Demyanska yaxınlaşmaq idi.

235-ci piyada diviziyası Kulotino kəndinin azad olunması məqsədilə 1942-ci il iyulun 19-dan 23-dək olan tarixdə növbəti dəfə hücuma başladı. Bu dəfə birinci olaraq 732-ci atıcı alayı döyüşə atıldı.

Düşmən yenidən güclü müqavimət göstərməyə başladı. Əsgərlərimizin igidliklə döyüşmələrinə baxmayaraq, Kulotinonu bu dəfə də ələ keçirmək mümkün olmadı. Bu döyüşlərdə Hüseynin əsgər dostları Sergey Zubkov, Stepan Kresan, Vasili Lisixin, Georgi Ovçinnikov və Qriqori Ukrainets qəhrəmanlıqla həlak oldular.

Diviziya 1942-ci il iyulun 24-dən 1943-cü ilin fevralın 16-dək olan müddətdə düşmən ordusu ilə müdafiə vəziyyətində qaldı.

Nəhayət, fevralın 16-dan martın 12-dək olan tarixdə 235-ci piyada diviziyası 53-cü Ordunun tərkibində olmaqla, qəti hücuma keçərək düşmənin Demyansk qruplaşmasını darmadağın etdi. Bu döyüşlərdə düşmənin xeyli canlı qüvvəsi məhv edildi və döyüş sursatı qənimət götürüldü.

Düşmənin Demyansk qruplaşması darmadağın olunandan sonra diviziya əvvəlcə Step cəbhəsinə, daha sonra isə Bryansk cəbhəsinə, "Kursk çıxıntısı"na göndərildi. Burada diviziyanın qarşısına başlıca vəzifə kimi Oryol şəhərinin alınması qoyulmuşdu. Diviziya bu vəzifəni şərəflə yerinə yetirdi, avqustun 5-də Oryol şəhəri düşməndən azad olundu.

Bu döyüşlərdən sonra diviziya yenidən formalaşması üçün ehtiyata, Tula şəhərinin yaxınlığındakı Şekino dəmiryolu stansiyasına göndərildi.

Sentyabr ayında isə diviziya Belorusiyaya, Kalinin cəbhəsinə göndərildi. Burada diviziyanın əsgər və zabitləri qəhrəmanlıqla döyüşərək, Rudno, Qorodok və Nevel şəhərlərini düşməndən azad etdilər.

Gənc Hüseyn 1943-cü ilin noyabr ayının 10-da Kalinin (indiki Pskov) vilayətinin Nevel şəhəri uğrunda gedən döyüşlərdə ağır yaralandı və İvanovo hərbi hospitalında 4 ay müalicə alıb sağalandan sonra yenidən cəbhəyə qayıtdı.

Bu ərəfədə, 1944-cü ilin əvvəlində 1-ci Pribaltika cəbhəsi yaradıldı və 235-ci piyada diviziyası 43-cü ordunun tərkibində olmaqla, bu cəbhəyə daxil edildi. Qarşıda yeni ağır döyüşlər dururdu.

1944-cü il iyunun 22-də 235-ci piyada diviziyası Qərbi Dvina çayını keçdi və Vitebsk-Polotsk istiqamətində müdafiə istehkamı qurdu. İyunun 23-də səhər saat 09-da başlanan ordumuzun iki saatlıq güclü top atəşindən sonra diviziyanın 732-ci atıcı alayı düşmənin ön mövqelərinə qarşı hücuma keçdi və tezliklə almanların ön müdafiə səddi yarıldı. Bu döyüşdə düşmənin 300 əsgər və zabiti öldürüldü, 240 əsgər və zabiti isə əsir götürüldü. Xeyli döyüş sursatı qənimət alındı.

Düşməni təqib edən alay Murojnitsa, Zatişe və Ujlyatino məntəqəsində almanların güclü və möhkəm təşkil olunmuş pulemyot və top atəşi ilə qarşılaşdı.

Bitebck vilayətinin Şumilinsk rayonunun Ujlyatino yaşayış məntəqəsində düşmənin müdafiə səddinin yarılması uğrunda gedən döyüşlərdə 22 yaşlı Hüseyn əl pulemyotu ilə almanların iki pulemyot dzotunu və 13 alman əsgərini məhv etdi. Gənc Hüseynin bu qəhrəmanlığı nəticəsində piyadalarımızın irəliyə doğru hərəkəti təmin olundu, son nəticədə düşmənə yeni müdafiə istehkamı qurmağa imkan verilmədi.

Hüseyn Heydərov bu döyüşdə göstərdiyi şücaətinə görə komandanlığın əmri ilə 3-cü dərəcəli Şöhrət ordeni ilə təltif olundu.

İyunun 26-da beş günlük ağır döyüşlərdən sonra Vitebsk vilayəti bütünlüklə düşməndən azad olundu. Bu döyüşlərdə 2-ci atıcı batalyonun komandiri, baş leytenant Volodin və 4-cü atıcı taqımın komandiri, baş leytenant Yakovlev qəhrəmancasına həlak oldular. Döyüşdə ağır yaralanmış Gürcüstandan olan azərbaycanlı Məmməd isə Hüseynin qolları üstə can verdi. Bu, onunla yaxın dost olan Hüseyn üçün çox ağır itki idi. 235-ci atıcı diviziyası uğurlu döyüş əməliyyatına görə, "Vitebsk" fəxri adına layiq görüldü.

Vitebskdən sonra diviziyanın qarşısına şimala doğru irəliləməklə Riqaya hücum etmək vəzifəsi qoyuldu. Diviziya Riqaya doğru gedən yolda, Lielupe çayının ətrafında düşmənin güclü müdafiə səddini yarıb çayı keçdi və döyüşə-döyüşə irəliləyərək Bausk və Mitava şəhərlərini ələ keçirib, Riqa ətrafında döyüşə başladı.

Riqa şəhəri uğrunda gedən döyüşlərdə H.Heydərov yenidən ağır yaralandı və ilin sonunadək hərbi hospitalda müalicə olundu. Hüseyn ürək, qaraciyər nahiyəsindən və sağ qolundan ağır yara almışdı. O, ömrünün sonunadək qaraciyərində qəlpə gəzdirdi. Onu müalicə edən milliyətcə yəhudi həkim demişdi ki, sən öz əcəlinlə ölməyəcəksən. Səni bu qəlpə öldürəcək.

Hüseyn Heydərov 1945-ci ilin yanvarında 2-ci qrup əlil kimi boya-başa çatdığı doğma Boladi kəndinə qayıtdı. Onun üç böyük qardaşı isə müharibədən qayıtmadı.

Hüseyn müəllim kənd məktəbində pedaqoji işinə davam etdi. O, 1947-ci ildə APİ-nin tarix fakültəsinə qəbul olundu və oranı qiyabi yolla 1953-cü ildə bitirərək, məktəbdə tarix fənnini tədris etməyə başladı.

Hüseyn müəllim 1948-1978-ci illərdə Boladi kənd 1 saylı orta məktəbində tədris işləri üzrə direktor müavini vəzifəsində çalışdı. O, yuxarı siniflər üzrə tədris işinə rəhbərlik edirdi.

Müəllimlərin səmərəli fəaliyyəti, tədrisə vicdanlı münasibəti sayəsində həmin dövrdə Boladi kənd orta məktəbinin adı respublikada öncüllər sırasında idi.

Məktəbi bitirən məzunların sorağı nəinki ölkə, eləcə də, Moskva, Sankt-Peterburq, Kiyev, Saratov və digər şəhərlərin ali təhsil ocaqlarından gəlirdi. Hazırda onların əksəriyyəti rəhbər vəzifələrdə çalışır.

Uzun müddətli səmərəli pedaqoji fəaliyyətinə görə Hüseyn müəllim "Qabaqcıl maarif xadimi", "SSRİ maarif əlaçısı" və 1981-ci ildə isə Qırmızı Əmək Bayrağı ordeninə layiq görüldü. Bu ordenin şəxsən Ulu Öndər Heydər Əliyevin onun yaxasına sancmasından daim qürur hissi duyurdu.

Hüseyn müəllimin həyatında unudulmaz iz buraxan hadisələrdən biri də onun Vilyana şəhərində cəbhə dostları arasında keçirdiyi günlər oldu. Həmin vaxt latviyalılar öz xilaskarlarını qonaq kimi görüşə dəvət etmişdilər. Bu görüşdə Hüseyn müəllimə Vilyana şəhərinin fəxri vətəndaşı pasportu təntənə ilə təqdim olundu. Sonra "Döyüş şöhrəti" muzeyinin açılışı oldu. Muzeydə Hüseyn müəllimə bölmə həsr edilmişdi. Bölmədə onun döyüş yolunu əks etdirən xeyli eksponat vardı.

Hüseyn müəllim ömür-gün yoldaşı Fəxri xanımla birlikdə 7 övlad böyüdüb ərsəyə yetirib. Oğlanlardan Arif o zamankı S.M.Kirov adına ADU-nun "Mexanika və riyaziyyat" fakültəsini əla qiymətlərlə başa vurmuş və uzun illər bu mötəbər tədris ocağında müəllim işləmişdir. Neçə-neçə fəxri fərmanlara layiq görülmüş, fizika-riyaziyyat elmləri namizədi alimlik dərəcəsinədək ucalmışdı. Təəssüf ki, Arif Heydərov az yaşadı. Onun vaxtsız ölümü həm doğmaları, həm də elmi ictimaiyyət üçün ağır itki oldu.

Hüseyn müəllimin ikinci oğlu Rauf Texniki Universiteti, Sərraf İqtisad Universitetini, Afərin Kiyev Politexnik Universitetini, qızları Mahirə APİ-nin riyaziyyat fakültəsini, Gülmirə və Nəfisə isə İnşaat Mühəndislər İnstitutunu bitirmişlər.

Oğlu Sərraf Heydərov 1990-cı ildə indiki Bakı İdarəetmə Akademiyasını da bitirib və hazırda rəhbər vəzifədə çalışır.

Hüseyn müəllimin qaraciyərində uzun illər gəzdirdiyi qəlpə onu ömrünün ahıl çağlarında haqladı. Müharibədə onu müalicə edən yəhudi həkimin dedikləri düz çıxdı. Hüseyn müəllim 1997-ci il iyulun 7-də elə həmin qəlpədən dünyasını dəyişdi.

Nizami HÜSEYNOV,
Azərbaycan Jurnalistlər Birliyi
Lənkəran təşkilatının sədri

Xatirələrdə yaşayanlar

ŞEİRİMİZİN GÜLAS ÇİÇƏYİ

Nurani insan idi Mirhaşım Talışlı. Sözü, əməli işıqlı olduğu üçün üzü də nurlu idi. Öz gücünü ulu, müqəddəs bir nəslin kökündən götürən bu nur bir ailəyə, bir məktəbə, bir universitetə, bir rayona sığışmadı, bütün ölkəni bürüdü. Bu işıqdan neçə-neçə qəlbə pay düşdü. Yüzlərlə gənc öz həyat yolunu onun ziyasından bəhrələnərək seçdi. İşığın hər zərrəsi yeni bir yol yaratdığı kimi Mirhaşım müəllimin nuru da şagirdlərinin, tələbələrinin simasında kənd-kənd, şəhər-şəhər ölkəyə yayıldı. Bu işıqlı insana neçə-neçə şeirlər, poemalar, elmi və publisist məqalələr həsr olundu. Tez-tez Lənkəranda bu çıraq kişinin qonağı olan Xalq şairi Qabil dostu Mirhaşım Talışlıya həsr etdiyi "Gülas" şeirində deyirdi:

Lənkəran tarixi dilində əzbər,
O da bir vərəqi Azərbaycanın.
Var olsun onuntək çıraq kişilər,
Nur olsun sinəsi Azərbaycanın.

Bu çıraq kişinin üzünün nuru qədirbilən rəhbərlər tərəfindən vaxtında dəyərləndirildi. 1998-ci ilin 5 oktyabrında Ulu Öndər Heydər Əliyev Lənkəranda olarkən M.Talışlının simasında lənkəranlılara öz səmimi fikirlərini ünvanladı: "Siz Lənkəran xanlarının varislərisiniz. Siz Talışxanovlar, generallar sülaləsinin varislərisiniz. Siz burada – bu Talış dağlarının ətəyində Azərbaycan elmini, mədəniyyətini, təhsilini inkişaf etdirən dəyərli ziyalılar yetirmisiniz..."

Nə qədər zəkalı bir insandır, nə qədər Azərbaycana sədaqətli bir insandır Mirhaşım Talışlı. Bu sayğı və diqqətin davamı olaraq Ulu Öndərin layiqli davamçısı, ölkə başçısı cənab İlham Əliyevin Sərəncamı ilə 2006-cı ildə M.Talışlıya Prezidentin fərdi təqaüdü verildi.



M.Talışlı 1926-cı ilin ən gözəl bir günündə – mart ayının 21-də, gecə ilə gündüzün bərabər olduğu bir gündə dünyaya göz açmışdı. Təbiətin bu düzlüyü, bərabərliyi sanki ruhuna hopmuşdu. Onun mizanı, tərəzisi düz idi, hamıya eyni gözlə baxırdı. İşığını hamıya bərabər paylayırdı. Hamıdan umduğu da düzlük və həqiqət idi.

Əsasən klassik üslubda şeirlər yazan M.Talışlı əruz vəzninin kamil bilicisi idi. "Müsafir" təxəllüsünü ona ustad qəzəlxan Əliağa Vahid vermişdi. Yol gedən, qonaq anlamındadır Müsafir sözü. O, haqq yolunun, həqiqət yolunun yolçusu idi, müsafiri idi. İmanlı, inamlı adam idi Mirhaşım müəllim.

1992-ci ildə XIX əsrdə fəaliyyət göstərən "Fövcül-füsəha" ədəbi məclisini yenidən bərpa etdi. Məclisə rəhbərlik etməklə yanaşı, "Şəm" qəzetinə də redaktorluq edirdi. Bu gün rayonumuzda əruz vəznində şeir yazanlar Mirhaşım müəllimə mənən borcludurlar. Gənc yazarlar əruz şeirin sirlərini məhz bu məclisdə Mirhaşım müəllimdən öyrəndilər.

O, şərəfli müəllim adının əsl daşıyıcısı idi. Ömrünün 65 ilini pedaqoji fəaliyyətlə, gənc nəslin təlim-tərbiyəsi ilə məşğul olmuşdu. Rayonda böyüklü-kiçikli hamı onu özünün müəllimi hesab edirdi. Filologiya üzrə fəlsəfə doktoru idi. Təqaüdə çıxmamışdan əvvəl Lənkəran Dövlət Universitetində kafedra müdiri işləyirdi. Neçə-neçə istedadlı gəncin alim kimi yetişməsində xüsusi zəhməti vardı.

Gənc yaşlarından bədii və elmi yaradıcılıqla məşğul olan M.Talışlı yüzlərlə elmi və publisist məqalənin, 10-dan çox kitabın müəllifidir. "125 yaşlı məktəb", "Lənkəran" (tarixi-etnoqrafik sorğu kitabı), "Dedim ki, sözüm qala", "XIX əsr Azərbaycan ədəbiyyatı" (dərs vəsaiti), "Xatirəmdə yaşayanlar", "Gülas dəftəri" kitabları, 3 cilddə "Seçilmiş əsərləri" ilə yanaşı, yazıçı-publisist Hacı Etibar Əhədovla birgə "Lənkəran: ensiklopedik məlumat kitabı" onun gərgin əməyinin, zəngin yaradıcılığının məhsuludur. Bütöv bir universitetin görə biləcəyi işi bu iki müəllif məsuliyyətlə öz çiyinlərinə götürmüş və sanballı bir kitab ərsəyə gətirmişlər.

Özü canlı bir kitabxana, canlı bir ensiklopediya olsa da, təvazökar bir insan idi Mirhaşım müəllim.

Sən büllur içində bircə içim su,
Paylan gilə-gilə, tutiyadır bu.
Gözün tox, könlün tox, başın aşağı,
Qəlbin? Qəlbin də ki, gülas yarpağı.

Xalq şairi Qabilin ona ünvanladığı bu sözlər təsadüfü deyil. "Gözü tox, könlü tox, başıaşağı" bir insan idi Mirhaşım müəllim. Elə həyətindəki bağçada bəslənilən, onlarla şairin şeir həsr etdiyi gülas çiçəyinin zərif yarpağı kimi. Onu həm də "şeirimizin gülas çiçəyi" adlandırsaq, məncə, səhv etmərik.

Mirhaşım müəllim ötən il aprel ayının 5-də dünyasını dəyişdi. Artıq onu bir illik zaman kəsiyi bizdən ayırır. Şairin il mərasimi mərhumun qohumları və Lənkəran Şəhər İcra Hakimiyyəti tərəfindən yüksək səviyyədə qeyd olundu. Yaşadığı evin fasadına xatirə lövhəsi vuruldu. Onun xatirəsi qədirbilən insanların qəlbindən heç vaxt silinməyəcək.

Mirhaşım Talışlı ölməzlik qazanan ziyalılardandır. İllər, qərinələr keçsə də, onun işığı, nuru heç zaman sönməyəcək. Şagirdlərinin, tələbələrinin, bu çıraqdan işıq alan hər kəsin simasında nəsildən-nəslə ötürüləcəkdir.

Ağamir CAVAD

Teatr xəbərləri

XALQ ARTİSTİ QABİL QULİYEVİN 70 İLLİK YUBİLEYİ QEYD OLUNUB

Aprelin 19-da Lənkəran Dövlət Dram Teatrının truppası Lerik rayon mədəniyyət evinin səhnəsində Üzeyir Hacıbəyovun felyetonları, pamfletləri və hekayələri əsasında mərhum rejissor, Əməkdar incəsənət xadimi Baba Rzayevin quruluş verdiyi "Olanlardan-keçənlərdən" tamaşasını təqdim edib.

Teatrın aparıcı səhnə ustası, Azərbaycanın Xalq artisti Qabil Quliyevin 70 illiyinə həsr olunmuş tamaşadan öncə Lerik Rayon İcra Hakimiyyəti başçısının müavini Arzu Vəliəmmədova, Lənkəran Dövlət Dram Teatrının direktoru Tofiq Heydərov, İran İslam Respublikasının Ərdəbil vilayəti mədəniyyət baş idarəsinin rəis müavini Qərib Mənuçehri və digərləri çıxış edərək Qabil Quliyevin Azərbaycan teatrının inkişafında göstərdiyi əvəzsiz xidmətlərindən söz açıblar.

Tədbirdə yubilyara Lerik Rayon İcra Hakimiyyəti, rayonun ayrı-ayrı təşkilatları tərəfindən xatirə hədiyyələri təqdim olunub.

Daha sonra Xalq artisti Qabil Quliyevin, əməkdar artistlər Adil Zeynalovun və Sucəddin Mirzəyevin, aktyorlardan Miraslan Ağayevin, Qızılgül Quliyevanın, Əlibala Əsgərovun, Emin Fərzullayevin, Hikmət Cəfərovun, Rauf Zeynalovun və Nizami Qurbanovun iştirakı ilə "Olanlardan-keçənlərdən" tamaşasına baxış olub.

Qeyd edək ki, epik səpkidə hazırlanmış tamaşada dramaturji material üçün mövzu Ü.Hacıbəyovun XIX əsrin sonlarında və XX əsrin əvvəllərində müxtəlif qəzetlərdə işıq üzü görmüş felyeton, hekayə, pamflet və intermediyalarından istifadə olunub. Elmsizlik və savadsızlığın, köhnə məktəb üsulunun, xalqın tərəqqisinə mane olan adət və ənənələrin tənqidi tamaşanın əsas ideyasını təşkil edir.

Yerli ictimaiyyətin böyük maraqla izlədiyi tamaşadan sonra Lerik Rayon İcra Hakimiyyətinin başçısı Rövşən Bağırov Xalq artisti Qabil Quliyevi qəbul edərək ona yubiley təbrikini çatdırıb.

Məlumat üçün bildirək ki, "Olanlardan-keçənlərdən" tamaşasının premyerası 1985-ci il martın 28-də baş tutub. Lənkəran Dövlət Dram Teatrının repertuarında öz sevilən mövqeyini qoruyub saxlayan bu tamaşa həmçinin Azərbaycan Dövlət Televiziyasının "Qızıl Fondu"na daxil edilib.

***

YENİ TAMAŞANIN PREMYERASI OLUB

Aprelin 24-də Lənkəran Dövlət Dram Teatrında Qırğızstanın Xalq yazıçısı Mar Bayciyevin "Şənbə axşamı" əsəri əsasında hazırlanan eyni adlı tamaşanın premyerası olub.

Səhnə əsərində hadisələr bizim günlərdə cərəyan edir. Moskvada ali məktəbdə təhsil alan oğlan doğulduğu kəndə qayıdır və ailə qurmaq istəyir. Hadisələr elə bu müstəvidə cərəyan edir.

Anşlaqla keçən və böyük maraqla izlənilən tamaşanın quruluşçu rejissoru Əməkdar incəsənət xadimi Oruc Qurbanov, quruluşçu rəssamı Məzaim Qurbanov, musiqi tərtibatçısı Miranda Qurbanovadır.

Rolları Xalq artisti Qabil Quliyev, Əməkdar artistlər Zemfira Nəcəfova və Sucəddin Mirzəyev, aktyorlardan Şahrud Mehdiyeva, Qızılgül Quliyeva, Sayad Əliyev, Təranə Fərəcova ifa ediblər.

***

İRANLI REJİSSOR "SİNEMARIN QƏTLİ" TAMAŞASINI HAZIRLAYIR

Lənkəran Dövlət Dram Teatrında yeni tamaşanın məşqlərinə başlanılıb.

İran İslam Respublikasının Ərdəbil şəhərindən dəvət olunmuş rejissor Qərib Mənuçöhri teatrın səhnəsində İran dramaturqu Bəhram Beyzainin "Sinemarın qətli" əsəri əsasında tamaşa hazırlayır.

Tamaşada əsas rolları Xalq artisti Qabil Quliyev, Əməkdar artist Sucəddin Mirzəyev, aktyorlardan Aynur Əhmədova, Səyyad Əliyev və Emin Fərzullayev ifa edirlər.

"Sinemarın qətli" əsəri Lənkəran teatrında İran rejissorlarının quruluşunda hazırlanan ikinci tamaşadır. Bundan əvvəl İran İslan Respublikasının paytaxtı Tehran şəhərindən dəvət olunmuş rejissor Xeyrullah Təğiyənipur Lənkəran teatrının səhnəsində "İlan Sultan" tamaşasını hazırlamışdı.

Tamaşanın premyerası mayın ortalarında keçiriləcək. Bu səhnə əsəri, həmçinin Azərbaycanın rayonlarında, Bakıda, eləcə də İranın müxtəlif şəhərlərində nümayiş olunacaq.

Ağaddin BABAYEV

ƏHALİNİN SAĞLAMLIĞI KEŞİYİNDƏ

Redaksiyaya məktub

Azərbaycan Prezidenti möhtərəm İlham Əliyevin tapşırığına əsasən respublika əhalisinin pulsuz tibbi müayinələrə cəlb edilməsi, hər yerdə olduğu kimi, Lənkəran rayonunda da uğurla yerinə yetirilir. Fevral ayının 11-dən başlanan kampaniya aprelin 30-da başa çatacaq. Artıq bir neçə ildir ki, biz kənd sakinləri də dövlət başçımızın xeyirxah təşəbbüsündən layiqincə bəhrələnirik.

Bu yaxınlarda Lənkəran Mərkəzi Rayon Xəstəxanasının həkim briqadası kəndimizdə əhalinin tibbi müayinəsini həyata keçirdi. Kənd tibb məntəqəsində təşkil olunan aksiya zamanı vətəndaşlar yüksək ixtisaslı, peşəkar həkimlər tərəfindən müayinə edildi, səhhətində problemi olanlar MRX-ə göndərildi, digərlərinə yerindəcə tibbi yardımlar göstərildi. Sakinlərimiz onların sağlamlığının qeydinə qalan möhtərəm Prezidentimizə sonsuz minnətdarlıqlarını bildirirlər.

Viyən kənd tibb məntəqəsinin müdiri, ixtisasca pediatr olan Yaşar Əsgərov həmişəki kimi, bu dəfə də MRX-nin həkim briqadasına lazımi köməkliyi əsirgəmədi. Qayğıkeş həkim kənddə yaşayan uşaqların dispanserizasiyasına da mühüm diqqət yetirir. Onun rəhbərliyi ilə 18 yaşadək uşaqlar Lənkəran Şəhər Uşaq Poliklinikasına aparılır və burada tibbi müayinədən keçirilir.

Hazırda aprelin 24-dən 30-dək respublikada həyata keçirilən "Uşaqların immunlaşdırma həftəsi" də kəndimizdə mütəşəkkil surətdə yerinə yetirilir. Məntəqə müdiri evlərə bir-bir zəng edir, uşaqların peyvəndə cəlb olunması üçün işçiləri ilə birlikdə maksimum çalışır. Bu işdə ona məntəqənin stomatoloqu Sabit Quliyev və tibb bacıları yaxından yardım edirlər.

Hörmətli redaksiya! Viyən kəndində uşaqdan böyüyə hamının sağlamlığı keşiyində dayanan, əhalinin dərin rəğbət və hörmətini qazanan tibb məntəqəsinin müdiri Yaşar Əsgərova, stomatoloq Sabit Quliyevə və tibb bacılarına qəzetiniz vasitəsilə təşəkkürlərimizi çatdırmağı xahiş edirik.

Rəhim ƏLİYEV,
Viyən kənd sakini, Əmək veteranı

Ídman

ATLETİKA ÜZRƏ ZONA BİRİNCİLİYİNDƏ

Lənkəran Olimpiya İdman Kompleksində məktəblilər arasında atletika üzrə Respublika çempionatının zona birinciliyi başa çatıb.

İki gün davam edən yarışda Astara, Lənkəran, Masallı, Yardımlı, Lerik, Cəlilabad, Biləsuvar, Salyan, Neftçala, Cəbrayıl rayonlarının məktəb komandaları qələbə uğrunda mübarizə aparıblar.

Zona birinciliyində daha inamlı oyun nümayiş etdirən Lənkəran rayonunun Haftoni qəsəbə tam orta məktəbin komandası birinci, Biləsuvar rayonunun Xırmandalı kənd 1 nömrəli tam orta məktəbin komandası ikinci, Salyan rayonunun Arbatan kənd tam orta məktəbin komandası üçüncü yerləri tutublar

Zona yarışlarında birinci və ikinci yerləri tutan komandalar Respublika çempionatının final mərhələsinə vəsiqə qazanıblar.

"Lənkəran"

LƏNKƏRANDA CÜDO ÜZRƏ AÇIQ RAYON BİRİNCİLİYİ KEÇİRİLİB

Lənkəran Şəhər Gənclər və İdman İdarəsinin və Cənub Qarışıq Döyüş Növləri Mərkəzinin birgə təşkilatçılığı ilə Lənkəran Olimpiya İdman Kompleksində keçirilən uşaqlar və yeniyetmələr arasında cüdo üzrə açıq rayon birinciliyi başa çatıb.

Üç gün davam edən yarışda Lənkəran və Masallı rayonlarını təmsil edən 120 idmançı qələbə uğrunda mübarizə aparıb.

Açıq rayon birinciliyində 2009-2011-ci il təvəllüdlü uşaqlar və 2006-2008-ci il təvəllüdlü yeniyetmələr 11, 2003-2005-ci il təvəllüdlü yeniyetmələr isə 9 çəki dərəcəsində yarışıblar.

Komanda hesabında lənkəranlılar birinciliyin qalibi olublar.

Qaliblərə diplomlar, medallar və hədiyyələr təqdim olunub.

Qaliblərin mükafatlandırılması mərasimində çıxış edən Lənkəran Şəhər Gənclər və İdman İdarəsinin baş məsləhətçisi Sadiq Həmidov, idarənin aparıcı məsləhətçisi Ağakişi Baloğlanlı, yarışın baş hakimi Xanağa Quliyev və Cənub Qarışıq Döyüş Növləri Mərkəzinin direktoru, cüdo üzrə Lənkəran rayon yığma komandasının baş məşqçisi Zaur Məmmədov uşaqları və yeniyetmələri qazandıqları uğur münasibətilə təbrik ediblər.

Bildirilib ki, yarışın keçirilməsində məqsəd cənub bölgəsində cüdo idman növünü təbliğ və inkişaf etdirmək, idmançıların təlim-məşq prosesini təkmilləşdirmək, onların idman ustalığını yüksəltmək, güclü və perspektivli idmançıları aşkar etmək, rayonun cüdo üzrə yığma komandasının tərkibini müəyyən etməkdir.

"Lənkəran"

TAKSİDƏ SİQARET ÇƏKƏNLƏR CƏRİMƏLƏNƏCƏK

Aprelin 15-də Prezident İlham Əliyev "Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikasının 2015-ci il 29 dekabr tarixli 96-VQ nömrəli Qanununun tətbiqi barədə" fərmanında dəyişiklik edilməsi haqqında fərman imzalayıb.

Fərman taksidə siqaret çəkənlərin hansı dövlət qurumu tərəfindən cərimələnməsini müəyyən edir.

Fərmana əsasən, taksi minik avtomobilində tütün çəkənləri Daxili İşlər Nazirliyinin əməkdaşları cərimələyəcək. Qeyd edək ki, bu cərimənin məbləği 40 manatdan 50 manatadəkdir.

"Lənkəran"

ÍTMÍŞDÍR

Lənkəran şəhəri Anar Mahmudov küçəsi, ev 46-da yaşayan **Məmmədov Tofiq Vəlihət oğlunun** adına verilmiş ev sənədləri (kupça), o cümlədən torpaq mülkiyyətinə dair çıxarış və plan ölçü aktı itdiyi üçün etibarsız sayılır.

ALLAH RƏHMƏT ELƏSİN

Lənkəran Şəhər Təhsil Şöbəsinin müdiri Aslan İbrahimov və kollektivi şəhər 3 saylı tam orta məktəbin direktor səlahiyyətlərini icra edən **İradə Sadıqovaya** bacısı

Rəsmiyyənin

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Lənkəran şəhər 3 saylı tam orta məktəbin pedaqoji kollektivi məktəbin direktor səlahiyyətlərini icra edən **İradə Sadıqovaya** bacısı

Rəsmiyyənin

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Lənkəran Şəhər Təhsil Şöbəsinin müdiri Aslan İbrahimov və kollektivi Kərgəlan kənd tam orta məktəbinin direktoru **Heybət İsmayılova** anası

Təzəgül xanımın

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Baş redaktor
Əlimərdan ƏLİYEV

TƏSİSÇİLƏR:
Lənkəran Şəhər İcra Hakimiyyəti başçısının aparatı və "Lənkəran" qəzetinin yaradıcı kollektivi

HESAB NÖMRƏMİZ:
AZ30AIIB33010019443860238138
VÖEN 2600244411
Kapital Bankın
Lənkəran filialı
lisenziya № V 343
İndeks: 66920

ÜNVANIMIZ:
Lənkəran şəhəri, Heydər Əliyev prospekti, 3 (4-cü mərtəbə)
Telefonlar: 255-35-05, 255-35-49
E-mail: lenkeranqezeti@mail.ru
Buraxılışa məsul
Ağaddin Babayev

Qəzet redaksiyanın kompüter mərkəzində yığılmış və səhifələnmiş, Bakıda "Azərmedia" MMC-nin mətbəəsində çap olunmuşdur.
Tiraj: 2050